Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
“ İctimai və dövlət maraqlarının müdafiəsi”

# Bəxtiyar Vahabzadə yaradıcılığında folklor

**Özünün zəngin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan xalq şairi Bəxtiyar Vahabzadə çağdaş milli şeirimizin ən parlaq simalarındandır. Bəxtiyar Vahabzadə yaradıcılığı bədii ədəbiyyata çoxlu töhfələr vermişdir. Müxtəlif mövzulara müraciət edən şairin misralarında vətən, xalq sevgisi bariz şəkildə özünü göstərir. Onun istənilən mövzulu şeirlərinin oxucu tərəfindən bu qədər dərin bir məhəbbətlə sevilməsinin əsas səbəblərindən biri şairin xalq yaradıcılığına, folklora bağlılığından, bədii yaradıcılığında folklorun müxtəlif janrlarından bacarıqla istifadə etməsindən irəli gəlir.**

Məlum olduğu kimi, xalq yaradıcılığı Azərbaycan yazılı ədəbiyyatını həmişə zənginləşdirmiş, şair və yazıçılar ona əsaslanaraq, ondan ruhlanaraq öz bədii yaradıcılıqlarını yeni süjet və obrazlarla daha da zənginləşdirmişlər. Yazılı ədəbiyyatın folklorla əlaqələri ədəbiyyatın xalqın mənəvi dünyasına, xəlqilik probleminə, folklor ənənələrinin mənimsənməsinə olan dərin marağına əsaslanır. Yazılı ədəbiyyat xalq yaradıcılığına söykəmiş, onun əxlaqi və estetik ideallarını mənimsəmişdir. Folklor yazılı ədəbiyyatın bəsləyici mühitidir, onun həyatverici mənbəyidir. İstənilən dövrdə şair və yazıçılar xalq yaradıcılığının sərvətləri ilə bütün Azərbaycan ədəbiyyatını zənginləşdirməyə çalışmışlar. Janrlar və folklor süjetləri, bədii ifadəli və təsvir vasitələri yazılı ədəbiyyatla birləşir və ona milli xüsusiyyət verir. Onlar arasında ideoloji və bədii yaxınlıq aşkar edilir. Elə bir şair və yazıçı yoxdur ki, o, folklora müraciət etməsin, folklor ənənələrini öz yaradıcılığında əks etdirməsin.

Xalq poetik ənənələri, folklor janrları yazılı ədəbiyyatın əsas mənbəyidir. Yazılı ədəbiyyatın istiqlal şairlərindən olan Bəxtiyar Vahabzadə xalq yaradıcılığına biganə qalmamış, bədii yaradıcılığında ondan çox bəhrələnmişdir. Onun yaradıcılığı folklor janrlarından istifadə baxımından xüsusilə diqqətəlayiqdir.

Şairin bədii yaradıcılığında ilk növbədə diqqəti cəlb edən kiçik folklor janrlarıdır. Bu janrlar Bəxtiyar Vahabzadə şeirlərinin ruhunu təşkil edir. Ümumiyyətlə, kiçik folklor janrlarından olan atalar sözləri və məsəllər ədəbi əsərlərin dilinin mühüm bədii elementlərindəndir. Onlar qəhrəmanların xarakteristikasını vermək üçün yazıçılar tərəfindən istifadə olunur, hadisələrə müəllifin münasibətini ifadə edir, əhvalatın inkişafını vurğulayır, milli koloritin yaradılmasına imkan yaradırlar. Prof. Kamran Əliyevin də qeyd etdiyi kimi, hər hansı bir yazıçının atalar sözlərindən istifadəsi labüd və zəruridir, eyni zamanda bu, çox təbii şəkildə əsərə daxil olur. Məsələn, bəzi yazıçılar atalar sözlərindən istifadə etməklə öz fikir və mülahizələrini daha inamla deməyə imkan tapır, dedikləri sözə isə daha böyük etibar qazandırırlar.

Məhz bu xüsusiyyətlərinə görə atalar sözü və məsəllər B.Vahabzadənin yaradıcılığının da əsasını təşkil etmişdir. Onun müxtəlif misralarında tez-tez folklordan bəhrələnmə özünü göstərir.

Şairin yaradıcılığının folklorla əlaqəsi haqqında müxtəlif tədqiqatçılar fikir söyləmiş, bu əlaqəni fərqli tərəflərdən izah etmişlər. Həsən Həsənov yazır ki, filosof şair kimi tanınan Bəxtiyar Vahabzadənin fəlsəfəsi dünya elminin nailiyyətləri ilə yanaşı xalq müdrikliyinə və məntiqinə, fəlsəfi dili isə xalq dilinin sadəliyinə və aydınlığına əsaslanır. Tədqiqatçı Səbinə Alməmmədova Bəxtiyar Vahabzadənin əsərlərində işlətdiyi atalar sözü və məsəlləri dil cəhətdən izah edərək yazır ki, şair öz əsərlərində atalar sözləri və zərb-məsəllərdən tez-tez və mətləbə uyğun şəkildə istifadə etmişdir. Belə ki, şairin əsərlərində atalar sözlərindən istifadə iki şəkildə özünü göstərir. Birincisi, atalar sözləri və məsəllər əsərə heç bir dəyişikliyə uğramadan, canlı dildə olduğu kimi daxil edilmişdir. İkinci halda isə atalar sözləri və məsəllər konkret üslubi tələbə uyğunlaşdırılaraq işlənilmişdir. Məsələn, ”Nağıl - həyat” kitabında şair ”El içində, öl içində”, ”Azca aşım, ağrımaz başım”, ”Ot kökü üstündə bitər”, ”Yad yerin halvası şirin olar”, ”El gücü, sel gücü”, ”Niyyətin hara, mənzilin ora”, ”Kələk ilə gələn, külək ilə gedər”, ”Yalan ayaq tutar, amma yeriməz”, ”Tələsən təndirə düşər”, ”Öldü var, döndü yoxdu”, ”Xeyirlə şər qardaşdır”, ”Suyun lal axanı, insanın yerə baxanı”, ”Ağzımı yandıran aş, bir aş olasan. Başıma düşən daş, bir daş olasan”, ”Arı şirəyə gələr”, ”Özgə atına minən tez düşər”, ”Daş qayaya rast gəlib”, ”Bıçaq sümüyə dirənib”, ”Sonrakı peşmançılıq fayda verməz”, ”Yüz fikir bir borcu ödəməz”, ”Yatağan öküz yük götürməz”, ”Kor nə istər, iki göz, biri əyri, biri düz”, ”Azacıq aşın duzu deyil” və s. kimi atalar sözü və zərb-məsəllərini olduğu kimi işlətmişdir. Belə atalar sözü və məsəllər şairin seçilmiş əsərlərindən ibarət şeirlər toplusunda çox şairanə tərzdə səslənir:

Bu meydanda heyif ki, daim eniş axtaran,
”Azca aşım, ağrımaz başım” - deyənlər də var.

*”Əvvəl evin içi” demişlər nədən?*
*Sən çölü bilməzsən, içi bilmədən.*

*El deyib: ”Ağıllı fikirləşincə,*
*Dəli vurub keçdi çayı bir anda”.*

Şair atalar sözünü bəzən eynilə xalq dilində olduğu kimi verir. Bəzən də öz fikrini daha təsirli, estetik şəkildə oxucuya çatdırmaq üçün onlarda incə dəyişiklik edir:

Onlar ortada yeyib, qıraqdasa gəzdilər,
Namusu xərcləməkdən onlar çəkinməzdilər.

*İçində dəfn etdi dərdi-sərini,*
*O bildi, yox imiş yazıya pozu.*
*Elə güman etdilər,*
*Gah mıxa, gah da nala*
*Döyən amalsızmışam.*
*Amma əsli budur ki,*
*Gur axa bilməsəm də,*
*Damcı-damcı sızmışam.*

*”El bir olsa, zərbi kərən sındırar”,*
*El gücündə el dedi, sel gücü var.*
*Beş nəfərin yanmağından nə çıxar,*
*Xalq yanmasa dönüb millət olammaz.*

*Arxalı köpəklər qurd basan zaman,*
*Quzunun gümanı Allaha qalmış.*
*Oğrunun daş dələn qışqırığından*
*Biçarə doğrunun bağrı yarılmış.*

*”Haqqın min üzü var” - demiş dədələr,*
*Haqsızın özündə haqq çox əyilmiş...*

Şairin işlətdiyi ifadələr, qurduğu cümlələr də xalq müdrikliyi ilə yoğrulub. Onun özünə məxsus olan ifadələri sanki atalar sözünü xatırladır:

*Diri ikən, sağ ikən,*
*Öz səsi olmayanın ölümü səssiz keçər,*
*Min-min dəfə ölənin matəmi yassız keçər.*

*Sənətkar dediyin yanar çıraqdır.*



*Elin kədərinə, elin qəminə*
*Şair də yanmayıb, kim yanacaqdır?*

*O zaman evlərdə, idarələrdə*
*Qara kabus kimi gəzərdi şübhə.*
*Yaman yeyin idi şübhənin atı,*
*Hamımiz qul idik, o, bəydi ancaq.*

*Özgə qapısına daş atan azğın,*
*Sən özgə daşını özünə atdın.*

*Nöqsanını üzə deyən namərd deyil,*
*Kirayədə yaşadığın ev, yurd deyil,*
*Anan sənə ögey olsa, bir dərd deyil,*
*Zaman sənə ögey olsa, vay halına!*

Bəzən də şairin əsərlərində xalqın dilində tez-tez işlənən alqış və dualara rast gəlinir:

*Anan duasında dedi: ”Ya Allah,*
*Balamın həmişə üzü ağ olsun.*
*Elə yaşasın ki, el ona pənah,*
*O da el-obaya bir dayaq olsun”.*

*Sənə yalvarmaqdan dilim lal oldu,*
*”Bağlı qapıları özün aç”, - dedim.*

Şeirlərində mübarizəyə çağırış, doğma vətəni, xalqı qorumaq, onun çətin anlarında ona hayan olmaq şüarlarını səsləndirən müəllif torpağı düşmən tapdağı altında olan xalqına səslənişində də folklor nümunələrindən istifadə edir. Şairin ”Dedilər, dedilər...” şeirinə nəzər salaq:

*Dedilər: ”Ağıllı bəli deyəndir”.*
*Dedilər: ”Son gülən səbr eyləyəndir,*
*Ən böyük arzular səbrdən keçir.*
*Yay qışdan, söz səsdən, min - birdən keçir”.*

*Dedilər: ”Tələsən təndirə düşər,*
*Çıxmağa çalışma öz çanağından”.*
*Dedilər: ”Səbrlə bəslənən əgər*
*Atlas geyinərsən tut yarpağından”.*

Şair atalar sözlərindən müxtəlif mövzulu şeirlərində istifadə etmişdir. Məsələn, təklik, tənhalıq, qürbət mövzulu şeirlərində bu tipdə atalar sözünə müraciət etmişdir:

Xalqda: Tək ağacdan bağ olmaz.
B.Vahabzadədə:
*Yarpağı tez solar tək ağacın da,*
*Arxası yoxdursa, necə solmasın?*

Qürbət sıxıntısını da müəllif xalq ifadələri ilə işlədir:
*Öz el-obasını tərk etdiyindən*
*Tək-tənha dolanır bayquş bu gün də,*
*Kolların dibində tək bitdiyindən*
*Boynu bükük olur bənövşənin də.*

Bağa tək qınına çəkilənlərə
Ürək nə gərəkdir, dil nə gərəkdir!

Xalq arasında ”Yüz ölç, bir biç” şəklində işlənən atalar sözü şairdə ”Dolandım - yüz ölçüb bir biçəndə mən...” şəklində işlənir. Xalq dilindəki ”İnsan insana lazım olar”, ”Sənət insanın xəzinəsidir”, ”Sənət qolda qızıl bilərzikdir” ifadələri ?airin dilində ”Bu yaş ”insan insanın qardaşıdır” - deyirdi, / ”Sənət can yanğısıdır, göz yaşıdır” - deyirdi şəklində rast gəlinir. Xalqda ”Hər anın bir hökmü var, məlalı var” ifadəsi şairdə ”Hər günün öz hökmü var” kimi verilir. Şairin ”İstiqlal” şeirində ”Su axdığı yerdən yenə axacaq” ifadəsi xalqda ”Su axdığı yerdən bir də axar” şəklində işlənir.

Nəzakət Hüseynova ”Bəxtiyar Vahabzadə yaradıcılığında folklor motivlərindən istifadə məqamları” adlı məqaləsində həm xalqdan, həm də şairin yaradıcılığından gətirdiyi nümunələr əsasında B.Vahabzadə və xalq yaradıcılığı arasındakı əlaqənin müxtəlif tərəflərini izah etmişdir. Məsələn:

”Güllə yarası sağalar, söz yarası sağalmaz” xalq deyimi B.Vahabzadə şeirində:

*Güllə yarasına nə var?*
*tez gedər,*
*Getməz söz yarası, eyham yarası.*

Xalqda: ”Sınan könül bitişməz” deyimi B.Vahabzadə şeirində:

*Sınan bir könülə necə deyək: ”Döz!”*
*Yamasaq bilinər sınığın izi.*

Xalqda: ”Boyuna qamış ölçüm” deyimi B.Vahabzadədə:

*De, hardan öyrəndin sən bu oyunu?*
*Qamış tapılmadı ölçəm boyunu...*

Professor Yavuz Axudlu şairin həyat və yaradıcılığı haqqında özünün ”İstiqlal şairləri” kitabında bəhs etmişdir. Bu kitabda B.Vahabzadənin yaradıcılığını geniş şəkildə təhlil edən müəllif B.Vahabzadənin öz məqaləsindən nümunə də verir: ”Kökləri xalqın ürəyinə bağlanan sənət xalqın ürəyinə asanlıqla yol tapar. Çünki ürəkdən gəlməyən ürəyə yatmaz”.

Məhz buna görə də, xalqın ürəyinə bağlanan, xalqın ürəyindən xəbər verən şairin yaradıcılığı xalq ifadələri, atalar sözü, məsəllər və digər folklor janrları ilə zəngin olduğuna görə sevilmiş, sevilir və seviləcəkdir.

B.Vahabzadənin bədii yaradıcılığı ilə yaxından tanışlıqdan sonra onu deyə bilərik ki, şair folklorun müxtəlif janr, mövzu, motiv, süjetlərinə müraciət edərək, oxucularda milli dəyərlərə olan münasibəti daha da dərinləşdirmişdir. Onun poetik əsərlərinin analizi göstərir ki, şair folklor materiallarından məharətlə istifadə etmiş və xalq yaradıcılığının müxtəlif janrlarına müraciət edərək öz əsərlərinə aydınlıq, parlaqlıq və bədiilik verilmişdir.

**Fidan QASIMOVA**
**filologiya üzrə fəlsəfə doktoru**
**AMEA Folklor İnstitutu ”Folklor və yazılı ədəbiyyat” şöbəsinin böyük elmi işçisi**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***